# Xalqın milli mənafeyi müdafiə olundu



**Ötən əsrin 80-ci illərinin sonunda Sovet İttifaqının ideoloji sütunlarının dağılmasından sonra respublikalar müstəqil olmaq, xalqlar azad yaşamaq uğrunda mücadilə etdilər. Hələ can verən sovet rejimi isə xalqların istiqlaliyyət arzularını elə beşikdəcə boğmağa, hegemonluğunu saxlamağa çalışırdı. Coğrafi mövqeyinə, təbii ehtiyatlarının zənginliyinə görə strateji əhəmiyyət kəsb edən respublikamız İttifaq ölkələri arasında xüsusi yer tuturdu. Şərqdə ilk demokratik respublika qurmuş bir xalqın müstəqilliyini bərpa etməsindən narahat olan mərkəzi hakimiyyət buna mane olmaq üçün hər vasitəyə əl atır, düşünülmüş və məqsədli şəkildə həyata keçirilən ayrı-seçkilik siyasəti getdikcə daha kəskin xarakter alırdı. Ən optimal variant isə torpaqlarımızda sonradan məskunlaşdırılan ermənilərin ərazi iddialarını ortaya atmaqla xalqımızı müstəqillik yolundan döndərmək idi.**

1989-cu ildə verilən qərarla Qarabağda fəaliyyət göstərən bütün müəssisələr Azərbaycandan ayrılaraq Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Rayon partiya komitələri Ermənistanın tərkibinə daxil oldu, keçmiş DQMV ərazisində Ermənistan bayrağı asıldı. Bununla da Ermənistan Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan edərək soydaşlarımızı öz doğma torpaqlarından deportasiya etdi. Mərkəzin əli ilə hakimiyyətə gətirilən və onların diktəsi ilə hərəkət edən o zamankı ölkə rəhbərliyi xalqın deyil, məhz imperiyanın maraqlarına xidmət edir, xalqın tələblərini yerinə yetirmək, respublikanın ərazi bütövlüyünü qorumaq, daxildəki separatçı meyillərin aradan qaldırılması istiqamətində tədbirlər görmək əvəzinə, ermənilərin Qarabağla bağlı iddialarına etiraz edərək mübarizəyə qalxan xalqa təzyiq göstərilirdi. Hakimiyyətdəkilərin səriştəsizliyi nəticəsində ermənilər daha da azğınlaşır, torpaqlarımızın işğalının miqyası günbəgün genişlənirdi. Şuşanın nadir sərvətlərindən biri, qədim tarixə malik, əsl təbiət möcüzəsi olan Topxana meşəsinin yandırılmasına, Ağdamda iki azərbaycanlının qətlə yetirilməsinə, ərazilərimizin işğalına, vətəndaşlarımızın əzəli yurd yerlərindən deportasiyasına həm ümumittifaq, həm də respublika səviyyəsində biganəlik xalqın səbir kasasını daşırdı və milli istiqlal hərəkatına təkan verdi. Bakıda və bölgələrdə yürüşlər təşkil olundu, mitinqlər keçirildi. Erməni təcavüzkarlığına, mərkəzi hakimiyyətin ayrı-seçkilik siyasətinə etiraz edən xalqın qarşısını almaq üçün Bakıya sovet ordusunun silahlı birləşmələri yeridildi, əhali hərbi təcavüzə məruz qaldı. SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən yanvarın 20-də, saat 00:00-dan respublikada fövqəladə vəziyyət elan edildi. Lakin qoşun hissələri və ağır hərbi texnika yanvarın 19-da şəhərə daxil oldu. İlk olaraq Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı ki, xalq heç bir yerdən informasiya ala bilməsin. Mərkəzi hakimiyyətin bu çirkin planından xəbərsiz camaat nə baş verdiyini öyrənmək məqsədilə küçələrə axışdı. Elə hazırlanmış planın əsas tərkib hissəsi də məhz bundan ibarət idi: əliyalın insanları öldürmək, xalqın mübarizə əzmini sındırmaq, gözünü qorxutmaq, hədələmək. Hərbçilər dinc əhalini, evləri, təcili yardım maşınlarını, şəhər nəqliyyatını avtomat silahlardan atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, qoca, uşaq, qadın demədən insanları tanklarla əzib keçirdilər. O gecə milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhali qətlə yetirildi, şəhərin küçələri günahsız insanların qanına qərq oldu.

20 Yanvar hadisələri baş verən zaman Moskvada yaşayan ümummilli lider Heydər Əliyev ölkəmizin buradakı daimi nümayəndəliyinə gələrək kommunist rejiminin respublikamızda həyata keçirdiyi qanlı aksiyanı cəsarətlə pislədi. Bədnam M.Qorbaçovu, ümumiyyətlə, ölkəmizə hər zaman ikili münasibət bəsləyən mərkəzi hakimiyyəti ittiham edərək sovet ordusunun Azərbaycandan çıxarılmasını, qırğına siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını qətiyyətlə tələb etdi. Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri olan Azərbaycana mərkəzdən əlavə qoşun yeritməyə qətiyyən ehtiyac olmadığını, əgər belə bir zərurət var idisə, ölkənin hərbi hissələrindən istifadə edilməli olduğunu bildirdi. Ulu öndər 20 Yanvar qırğınını törədənlərin hər birinin layiqli cəza alacağını bəyan etdi. Xalqını, millətini canından artıq sevən ümummilli lider Heydər Əliyev bu bəyanatla SSRİ səviyyəsində ilk dəfə olaraq 20 Yanvar faciəsinə siyasi qiymət verdi.

Qanlı 20 Yanvar hadisələrinə etiraz səsini məhz Moskvada yüksəltməsi, sovet hökumətinin Azərbaycana qarşı apardığı xəyanətkar siyasətin mahiyyətini açıqlayaraq dünya ictimaiyyətinə müraciət etməsi yüksək dairələrdə böyük təşviş yaratdı. Demək olar ki, elə həmin andan etibarən dahi şəxsiyyət, müdrik siyasətçi Heydər Əliyevə qarşı kampaniya başladıldı, hətta həyatı belə risk altına düşdü. Buna görə də bu hadisələrdən sonra ümummilli lider Azərbaycana qayıtdı. Lakin mərkəzi hakimiyyətin Bakıdakı əlaltıları ulu öndərin burada qalmasına müxtəlif təxribatlarla mane oldular və iki gün sonra Heydər Əliyev Naxçıvana qayıtdı. Xalq dahi oğlunu böyük hörmətlə qarşıladı və bu çətin, ziddiyyətli proseslər dövründə öz taleyini ona etibar etdi. Qısa müddət sonra Heydər Əliyev Azərbaycan SSR və Naxçıvan MSSR-in deputatı seçildi. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında ulu öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının və Ali Sovetinin adından "sovet sosialist" sözləri çıxarıldı, Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı qəbul olundu. Dahi liderin təklifi ilə Naxçıvan MR Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Ali Məclisin 1990-cı il noyabrın 20-də keçirilən sessiyasında isə ümummilli lider Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparılması və 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi barədə təklif irəli sürdü. Azərbaycan rəhbərliyini bu qanlı hadisəyə siyasi qiymət verməməkdə, faciənin səbəblərini ört-basdır etməkdə günahlandıran Heydər Əliyev "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsi hazırlayaraq Naxçıvan MR Ali Məclisinin müzakirəsinə təqdim etdi. Bu sənədə əsasən Ali Məclisin 1990-cı il 21 noyabr tarixli qərarı ilə 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Qərarda deyilirdi: *"Yanvar faciələrinin səbəbkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, Sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək və insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır ki, 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin".* 20 Yanvarın hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi anılması qərara alındı. Azərbaycan SSR Ali Sovetinə yanvarın 20-nin hər il Azərbaycanda Milli Matəm Günü kimi qeyd olunması təklif edildi.

Azərbaycanı tam müstəqil, azad, demokratik respublika kimi görmək istəyən ümummilli lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi siyasi fəaliyyət dövlət müstəqilliyimizə gedən yolda mayaka çevrildi. Ulu öndərin 3 il ərzində gördüyü işlər, verdiyi qərarlar yalnız blokada şəraitində olan Naxçıvanın çətin vəziyyətdən çıxmasına, erməni təcavüzkarlarının qarşısının alınmasına deyil, eyni zamanda Bakıda baş verən proseslərin düzgün məcraya yönəldilməsinə, milli mənafeyə xidmət edirdi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**